DOI: 10.36719/2706-6185/04/51-55

**Leyla Əyyub qızı Qədirova**
Bakı Dövlət Universiteti
magistrant
lqedirova778@gmail.com

# SANKSİYALAR DÖVRÜNDƏ İRANIN NEFT-QAZ SƏNAYESİ

**Xülasə**

İranda İslam İnqilabının qələbəsindən sonra Tehran və ABŞ arasında gərginləşən münaqişə müşahidə olunur. Bu qarşılıqlı əlaqələr ABŞ-ın İrana qarşı sanksiyalar tətbiq etməsi ilə nəticələnib. Sanksiyalar 1979-cu ildən bəri davam edir və İranın iqtisadi inkişafını ləngidir. Birləşmiş Millətlər Təşkilatının üzv olması ilə İrana qarşı iqtisadi sanksiyalardan ibarət 461 saylı qətnamə qəbul edildi. Sanksiyalar əsasən neft, qaz və neft-kimyaya investisiyaları, emal olunmuş neft məhsullarının ixracını və İran İnqilab Keşikçiləri Korpusunun şirkətləri ilə işgüzar əməkdaşlığı hədəfləyib. Daha sonra bank və sığorta əməliyyatları, daşıma və internet xidmətləri, xüsusən də İran Mərkəzi Bankı da bura daxil oldu.

***Açar sözlər:*** *İran, Tehran, ABŞ, İran İslam İnqliabı, İran Mərkəzi Bankı*

**Leyla Ayyub Gadirova**
Baku State University
master student
lqedirova778@gmail.com

## Iran's oil and gas industry during sanctions

**Abstract**

Followed by the victory of the Islamic Revolution in Iran the aggravated conflict between Tehran and USA has been observed. These interrelations have resulted in USA imposing sanctions on Iran. Sanctions have lasted since 1979 and have decelerated Iran's economic growth. With the accession of the United Nations, Resolution 461 was adopted, comprising economic sanctions against Iran. The sanctions principally targeted investments in oil, gas and petrochemicals, exports of refined petroleum products, and business collaborations with Iranian Revolutionary Guard companies.Afterwards, banking and insurance operations, shipping, and Internet services have become to be included, especially the Central Bank of Iran.

***Keywords:*** *Islamic Revolution in Iran, Central Bank of Iran, Tehran, USA, Iran*

## Giriş

Şahlıq rejimi dövründəki dostluq münasibətindən fərqli olaraq İranda İslam inqilabının qələbə çalmasından sonra və xüsusilədə Tehranda ABŞ səfirliyinin tələbələr tərəfindən zəbt edilməsindən sonra bu əlaqələr pozularaq, gərginliklərlə yüklənmiş yeni mərhələyə daxil olundu.Belə ki, ABŞ çoxlu iqtisadi sanksiyalara əl ataraq İİR-ni beynəlxalq arenada təcrid olunmuş vəziyyətə salmağa cəhd göstərmişdir. ABŞ-la İran arasında münasibətlərin kəskinləşməsi rəsmi Vaşinqtonun Tehrana qarşı tətbiq etdiyi bir sıra əhəmiyyətli sanksiyalarla müşaiyət olunmuşdur (Country Analysis Brief, 2018).

Amerikanın İrana qarşı sanksiyalarının tarixi 1979-cu ilin noyabrın 4-də başlanmışdır. Bu sanksiyalar indiyə qədər də müxtəlif iradlar, eyni zamanda İranda insan hüquqlarının pozulması, terrorizm, kütləvi qırğın silahlarının istehsalı və yayılması, nüvə enerjisi məsələləri ətrafında davam edir. ABŞ dövləti səfirliyin işğalına qarşı adekvat cavab olaraq 1979-cu ilin noyabrın 13-də Amerika banklarında və xaricdəki şöbələrində saxlanılan İran dövlətinə məxsus bütün pullar müsadirə edildi və İrandan neftin idxalı dayandırıldı.

1979-cu ilin dekabrın 4-də Amerikanın təzyiqi ilə BMT-nin təhlükəsizlik şurasının 15 üzvü tərəfindən 457 nömrəli qətnamə qəbul olundu.Bu qətnamədə Tehranda Amerikanın səfirliyinin zəbt olunması birmənalı pislənildi. Bundan sonra girov götürmə məsələsilə bağlı ABŞ beynəlxalq məhkəməyə müraciət etdi. Dekabrın 15-də məhkəmə İrana qarşı hökm çıxartdı və məhkəmənin 15 nəfər üzvü ABŞ səfirliyinin işğalına görə İİR-sını mühakimə etdi (Nəvazəni, 2004: 129).

1979-cu ilin dekabrın 31-də Amerika dövlətinin təzyiqi nəticəsində BMT-nin təhlükəsizlik şurası 461 nömrəli qətnaməni qəbul etdi. Bu sənəddə də İrana qarşı iqtisadi sanksiyalar nəzərdə tutulmuşdur və amerikalı diplomatların 1980-ci il yanvarın 7-nə qədər azad edilməsi İran dövlətindən tələb olunurdu (Məbadi, 2002: 93).

İran-İraq müharibəsinin bitməsi nəticəsində İran iqtisadiyyatının yenidən qurulması ilə əlaqəli olaraq ABŞ-İran münasibətləri yeni mərhələyə daxil oldu. Bu siyasət ABŞ dövləti tərəfindən diqqətli bir şəkildə qəbul edildi və Amerikanın İrana qarşı iqtisadi sanksiyalarının ləğvi ilə nəticələndi. Belə ki, 1989-cu ildə Corc Buşun prezidentliyinin ilk illərində ABŞ dövlətinin İrana qarşı qoyduğu sanksiyaların bir hissəsi dayandırıldı və İranın ABŞ-da dondurulmuş pullarının 600 milyon dolları geriyə qaytarıldı (İran regionda geosiyasi faktor kimi, 2019). 1991-ci ilin sonlarında isə Corc Buş Amerikaya İran neftinin məhdud limitdə idxal edilməsinə icazə verdi. 1993-cu ildə İran Körfəzinin iki güclü dövləti olan İranı və İraqı nəzarətdə saxlamaq üçün Buş administrasiyası istiqamətli "nəzarət" siyasəti tətbiq etməyə başladı və bu siyasət nəticəsində ABŞ dövlətinin rəhbərlərinin İrana qarşı mövqeləri daha da radikallaşdı. Bu siyasətin davamı olaraq, ABŞ dövləti İİR-sına təzyiqləri artırdı və 1997-ci il avqustun 5-də respublikaçı senator Alfonso Damatonun layihəsi əsasında Amerika senatı İrana qarşı iqtisadi neft sanksiyalarının tətbiqi haqqında qərar verdi. Bu qanundan əsas məqsəd İran neft-qaz sənayesində xarici investisiyanın qarşısını almaq və beynəlxalq ictimaiyyətdə diplomatik səviyyədə bu ölkəni təcrid halına salmaq idi. Bu qanuna əsasən hər hansı bir şirkət ya iqtisadi müəssisə İranla 40 milyon dollardan çox neft müqaviləsi imzaladığı təqdirdə İslam respublikasının istehsal potensialı güclənə bilərdi və buna görə də Amerika dövləti tərəfindən sanksiyalara məruz qala bilirdi.Qeyd edək ki, bu kimi sanksiyalar son 50 ildə digər ölkələrə qarşı Amerika dövləti tərəfindən 70 dəfə tətbiq edilmişdir (Məbadi, 2002: 93).

Buna baxmayaraq ABŞ və BMT-nin təhlükəsizlik şurası tərəfindən İİR-na qarşı tətbiq edilən sanksiyaların ciddi təsiri olmamışdır.Sanksiyalar hər iki tərəfə mənfi təsir göstərmişdir.Əgər ABŞ İran neftini idxal etmirsə, Amerikanın daxili bazarında neftin qiyməti az miqdarda olsa da artacaq, İran isə öz neftini daha ucuz qiymətə digər beynəlxalq bazarlarda satacaq. Əgər qərb texnologiyası İran üçün məhdudlaşırsa, bu ölkə şərq ölkələrinə, o cümlədən Rusiya və Çinə üz tutur, bu zaman isə Amerika və onların qərbdəki müttəfiqlərinin şirkətləri zərər çəkir və rəqabətdən kənarda qalırlar (Energy Intelligence, 2018).

Tarixi boyunca dəfələrlə sanksiyalara məruz qalan İranda neft və təbii qaz sektorundan qazanc iqtisadiyyatın əsas gəlir mənbəyidir. O qədər ki, enerji sektoru ölkədəki dövlət gəlirlərinin 45-50%-ni və ümumi daxili məhsulun 20%-ni təşkil edir. B.Obamanın rəhbərliyi dövründə 2012-2015-ci illər arasında tətbiq edilən sanksiyalar zamanı ilk sırada enerji sektoru olmaqla, bir sıra sənayə sahələrinin gəlirlərində geriləmə olan İran iqtisadiyyatı çox çətin bir dövr keçmişdir. İqtisadiyyatın ən əhəmiyyətli gəlir sahələrindən biri olan neft ixracatındakı azalmanın təsiri ilə, ortalama 3 illik sanksiyalarla keçən dövr ərzində ölkə iqtisadiyyatında kiçilmə müşahidə edilmişdir. Sanksiyalar ilk olaraq neft, qaz və neft-kimya sahələrindəki investisiyaları, işlənmiş neft məhsullarının ixracını və İran İnqilabı Keşikçilərinə aid şirkətlərlə işgüzar əlaqələri hədəf alırdı. Ancaq daha sonra saksiyaların içərisinə İran Mərkəzi Bankı başta olmaqla, bank və sığorta əməliyyatları, gəmiçilik, internet xidmətləri və domen adı qeydiyyatı xidmətləri də daxil edilməyə başlandı (Facts Global Energy, 2017).

2012-ci ildə gündəlik neft ixracatı 2,1 milyon barel olan İranda bu rəqəm 2013-cü ilə qədər gündəlik 1.2 milyon barelə qədər geriləmişdir. İran, 2015-ci ildə nüvə sazişi imzalandığı zaman gündəlik ortalama 1 milyon barel neft ixrac edərkən, razılaşmadan sonra qaldırılan sanksiyalar nəticəsində,2017-ci ildə gündəlik ortalama 2,1milyon barel neft ixrac edirdi (Qrafik 1).

Qrafik 1. İranın neft ixracı (2012-2017, Milyon Barel / Gün)




Mənbə: OPEC

Nüvə sazişi ilə sanksiyaların qaldırılmasından sonra beynəlxalq ticarətə yenidən inteqrasiya olmağa başlayan İran yenidən neft ixrac etməyə və iqtisadi artım göstəricilərini yaxşılaşdırmağa başladı (Qrafik 2).

Qrafik 2. İranın iqtisadi artım göstəriciləri (2011-2017)




Mənbə: Dünya bankı

Ancaq ABŞ prezidenti D.Trampın sanksiyaların 2018-ci ilin may ayında tək tərəfli olaraq bərpa edəcəyini elan etməsi ilə, neft hasilatında nəzərəçarpacaq dərəcədə azalma müşahidə edildi (Qrafik 3).

Qrafik 3. İranın neft ixracı (Yanvar-Sentyabr 2018, Milyon Barel/Gün)




Mənbə: **Environmental İmpact Assessment (EIA)**

Tehran rəhbərliyi iqtisadiyyatında ən böyük gəlir mənbəyi olan neft ixracatını sanksiyalardan sonra da davam etdirmək üçün müxtəlif üsullar üzərində işləməyə başladı. Bu metodlar arasında ən gözə çarpan idxalçı ölkələrin tələblərinə uyğun formalaşan milli valyutalarla ticarət etməkdir. İnkişaf etməkdə olan ölkələr (İEOÖ) tərəfindən Qərb mərkəzli qlobal maliyyə sisteminə alternativ olaraq müzakirə edilən milli valyutalarla ticarət məsələsi, xüsusilə ticarət müharibələrinin sürətlə artdığı bu günlərdə sanksiyalardan mümkün qədər az təsirlənərək iqtisadiyyatlarını davam etdirmələrinin yollarından biridir (Inferences on Iranian Energy Policy After, 2017: 553-564).

İranın üzərində işlədiyi ikinci metod ixrac etdiyi neft tankerlərinin sığorta xərclərini öz üzərinə götürməkdir. Bu metod, Hindistanda fəaliyyət göstərən və ABŞ-la işləyən sığorta şirkətlərinin, sanksiyaların hədəfi olmamaq üçün İrandan idxalatı təmin etmək üçün geri addım atması nəticəsində gündəmə gətirilmişdir. Nəqliyyat sığortası almaq, iqtisadiyyatı böyük ölçüdə neft və digər məhsulların ixracatına dayanan İran kimi bir ölkə üçün çox vacibdir. İranın Amerika sanksiyalarına qapılmaqdan narahat olan idxalçılarını itirməmək üçün danışıqlar apardığı üçüncü metod, öz tankerləri ilə neft çatdırmaqdır. Bu kontekstdə Çinin Sinopec şirkəti, neft idxalını təmin etmək üçün İranın Milli Neft Şirkəti ilə bir müqavilə imzaladı və idxalın İrana məxsus tankerlər vasitəsi ilə daşınmasına qərar verdilər. İranın tətbiq etməyi düşündüyü son metod neft qiymətlərinin endirilməsidir. Neft ixracatına davam edə bilmək üçün Tehran neftin bahalaşması şəraitində idxalçıların artan neft qiymətləri qarşısında İran neftini almağa üstünlük verəcəklərini düşünürlər. Tehran rəhbərliyi bazarını qorumaq və ixracat həcminin daha da azalmasının qarşısını almaq üçün bu metodu vacib sayır (Exclusive: India Allows State Refiners to Use Iran Tankers, Insurance for Oil Imports).

D.Trampın 2018-ci ildə sanksiyaları bərpa edəcəkləri açıqlamasından sonra rəsmi Tehran, Tramp administrasiyasını sanksiyalardan çəkindirmək üçün tankerlərin gediş-gəliş nəqliyyatını cənub-şərq sahilində yerləşən Hörmüz boğazına bağlayacağı ilə hədələyir. Dəniz yolu ilə satılan neftin təxminən 30%-i və qlobal **mayeləşdirilmiş qaz** (LNG) ticarətinin isə 30%-dan çoxunun keçdiyi Hörmüz boğazı-yalnız İran üçün deyil, həm də digər neft və qaz ixrac edən Körfəz ölkələri üçün böyük əhəmiyyət kəsb edir.Şübhəsiz ki, Trampın sanksiya qərarının təsirlərinin ən aydın və sürətlə göründüyü sahə neft qiymətləridir.May ayında İran neftinə qarşı sanksiyalar tətbiq ediləcəyi xəbərinin təsiri ilə neft qiymətləri bahalaşmağa başladı. Nəticədə, Brent markalı neftin barel qiyməti

4 ildən sonra ilk dəfə 2018-ci ilin oktyabr ayında 80 dollarlıq bandı keçdi (Post-Sanctions Iran and Regional Energy Geopolitics, 2016).

## Nəticə

5 noyabr 2018-ci ildə neft sektoruna qarşı qüvvəyə minən sanksiyalar hələ tətbiq olunmağa başlamadan, elan olunduğu gündən İranda neft istehsalı və ixracı həcminin azalmasına səbəb olmuşdur. Bu proseslər sanksiyalardan kənar qalan təbii qaz sektoruna da təsir etməyə başladı. Bunun ən bariz nümunəsi, Fransız enerji nəhəngi Total-ın Trampın açıqlamalarından sonra İranda Cənubi Pars qaz layihəsinin 11-ci mərhələsində aparılan işlərdən geri çəkilməsidir. Bu məqamdan sonra beynəlxalq ictimaiyyət baxımından layihəni daha diqqətçəkən edən şey,Total-ın layihədən çıxması ilə səhmlərinin layihəni icra edən konsorsiumun tərəfdaşlarından biri olan Çin Milli Neft Şirkəti tərəfindən alınmasıdır (The Future of the Petroleum Sector in Iran, by Bijan Khajehpour, 2018). Bu alışdan sonra Çin şirkətinin payı yüzdə 80%-ə yüksəldi. Bu hadisə ilə ABŞ-ın dolayı yolla Orta Şərqdə Çin təsirinin artmasına yol açdığını söyləmək olar. Sanksiyalardan sonra İrandan neft almağa davam edəcəyini açıqlayan Çin zəngin neft və təbii qaz ehtiyatları ilə seçilən bölgədəki təsirini artırmaqdadır. Bu mənzərənin bir o qədər də bəhs olunmayan başqa bir tərəfi də var. Hansı ki, sanksiyaların ABŞ-ın enerji ixrac etdiyi bazarları artırmaq üçün yenidən tətbiq edilməsi. Məqsəd ABŞ-ı enerji idxalçısından enerji ixracatçısına çevirməkdir (Akkaya, İbrahimli, 2019).

## Ədəbiyyat

1. Country Analysis Brief. (2018). Iran, EIA, 9 April.
2. Nəvazəni, B. (2004). ABŞ-ın İİR-na qarşı siyasətinin prinsipləri (1979-2001). Tehran, İslam İnqilabı sənədləri mərkəzi, 129 s.
3. Məbadi, H. (2002). İran İslam İnqilabından sonra ABŞ-İran arasında münaqişələr. Tehran, İslam İnqilabı sənədləri mərkəzi, 93 s.
4. İran regionda geosiyasi faktor kimi. (2019). ABŞ-Aİ-Rusiya "üçbucağı"nın ziddiyyətləri fonunda, Bakı, 20 may.
5. Energy Intelligence. (2018). World Crude Oil Data – Iran, January.
6. Facts Global Energy. (2017). Iran’s Oil and Gas Annual Report, December.
7. Inferences on Iranian Energy Policy After. (2017). “Joint Comprehensive Plan of Action”. 553-564s.
8. Exclusive: India Allows State Refiners to Use Iran Tankers, Insurance for Oil Imports
9. Post-Sanctions Iran and Regional Energy Geopolitics. (2016). Serhan UNAL, Publication. 5th of February.
10. The Future of the Petroleum Sector in Iran, by Bijan Khajehpour. 2018.
11. Akkaya, S., İbrahimli, H. (2019). Iran's Rise to Regional Power

**Rəyçi: i.ü.e.d. Eldar Ələkbərli**

Göndərildi: 04.05.2021 Qəbul edildi: 11.07.2021

DOI: 10.36719/2706-6185/04/56-58